**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYTAC HİCRAN QIZI ABBASOVA**

# AZƏRBAYCAN FOLKLORUNUN REGİONAL XÜSUSİYYƏTLƏRİ (KƏLBƏCƏR NÜMUNƏLƏRİ ƏSASINDA)

57.19.01 - Folklorşünaslıq

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2016**

**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Kamran İmran oğlu Əliyev**
*Əməkdar elm xadimi,*
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Qəzənfər Məhəmməd oğlu Paşayev**
*filologiya üzrə elmlər doktoru, professor*

**Ramazan Oruc oğlu Qafarlı**
*filologiya üzrə elmlər doktoru, professor*

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin "Azərbaycan şifahi xalq ədəbiyyatı" kafedrası

**Müdafiə**___ _28/09________ 2016 –cı il saat ___ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən FD 01.201 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Aftoreferat ____ __________ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan xalqının tarixən çox qədim olan zəngin folklor irsi vardır. Azərbaycan folklor materiallarının toplanması, nəşri, tədqiqi və sistemləşdirilməsi həmişə Azərbaycan folklorşünaslığı üçün aktual məsələlərdən olmuşdur. Ayrı-ayrı bölgələr üzrə AMEA Folklor İnstitutu tərəfindən folklor antologiyalarının tərtib edilərək nəşr olunması, xüsusilə son illər Qarabağ layihəsi ilə bağlı atılan addımlar təqdirəlayiqdir. Folklor mətnlərinin regionlar üzrə toplanması, nəşri və araşdırılması Azərbaycan folkloru haqqında daha dolğun və geniş bilgi əldə etməyə imkan yaradır. Eyni zamanda, Azərbaycan folklorunun bölgələr üzrə araşdırılması ümumi folklorumuzun və onda baş verən dəyişikliklərin öyrənilməsi ilə yanaşı, folklor mətnləri arasındakı oxşar və fərqli cəhətləri də aşkara çıxarır. Bu da öz növbəsində Azərbaycan folklorunun özünəməxsus cəhətlərinin, eləcə də folklor obrazlarının arxaik semantikasının öyrənilməsində mühüm rol oynayır. Amma elə bölgələr də vardır ki, həmin bölgənin folklor nümunələri kifayət qədər toplanıb öyrənilməmişdir. Bu baxımdan Kəlbəcər və digər işğal olunmuş bölgə sakinlərindən folklor nümunələrinin həm toplanması, həm də araşdırılması aktual məsələlərdəndir. Şübhəsiz, ayrı-ayrı bölgələrin özünəməxsus şəraiti, həyat tərzi olduğu üçün orada yaşayan əhalinin də poetik düşüncəsi fərqli şəkildə təzahür edir. Digər tərəfdən çoxvariantlılığın folklorun əsas prinsiplərindən biri olmasını nəzərə alsaq, həmin bölgədən əldə ediləcək materiallar Azərbaycan folkloru ilə bağlı çoxvariantlılığın sistem halında tədqiqinə şərait yarada bilər. Azərbaycan folklorunun mövcud bölgələrdən toplanılması, sistemləşdirilməsi, kataloqlaşdırılması, nəşri və tədqiqi yuxarıda göstərdiyimiz səbəblərdən xüsusi əhəmiyyət daşıyırsa, eyni prosesin tarixən Azərbaycan torpaqları olmuş, hal-hazırda işğal edilmiş ərazi sakinləri arasında aparılması daha artıq dərəcədə elmi-mədəni, siyasi-milli dəyərə malikdir.

Məlumdur ki, erməni qəsbkarlarının fiziki və mənəvi terroruna məruz qalmış Azərbaycan xalqı tarixi torpaqlarının bir hissəsindən məhrum edilmişdir. Torpaq itkiləri etnosu yalnız mövcudolmanın maddi əsasından deyil, həmçinin mənəvi yaddaşdan da məhrum edir. Ona görə də düşmən tapdağı altında olan torpaqlarımızın folklorunun toplanması, nəşri, tədqiqi itirilməkdə olan etnik yaddaşın qorunması istiqamətində də xüsusi əhəmiyyətə malikdir. Azərbaycan folklorunun regional mühitlər kontekstində öyrənilməsi bilavasitə milli-mənəvi dəyərlərimizin, milli yaddaşımızın bərpası deməkdir.

Dissertasiyanın mövzusunun Kəlbəcər regionu ilə bağlı olması səbəbindən toplama işini dərhal və ciddi şəkildə aparmağa çalışdıq. Topladığımız nümunələr Kəlbəcər regionuna məxsus folklor resursları barədə müəyyən fikirlər söyləməyə imkan verir. Köçkünlük həyatı yaşayan Kəlbəcər sakinlərinin yaddaşındakı şifahi yaradıcılıq nümunələrinin – əfsanələrin, nağılların, bayatıların, lətifələrin, xalq oyunlarının toplanılması həmin bölgənin etnoqrafiyası, tarixi, coğrafiyası, adət-ənənəsi və mifoloji düşüncəsi barədə bitkin təsəvvür yaratmaq deməkdir ki, bu da mövzunun aktuallığını müəyyənləşdirən ən mühüm cəhətlərdən biridir.

**Mövzunun işlənmə dərəcəsi.** Kəlbəcər rayonuna məxsus folklor nümunələrinin toplanması ilə bağlı bir sıra işlər görülmüşdür. M.Nərimanoğlu tərəfindən "Kəlbəcər dünyası: folklor nümunələri", İ.Məmmədlinin "XX əsr Kəlbəcər ədəbi mühiti", A.Cəmil və M.Nərimanoğlunun birlikdə toplayıb nəşr etdirdikləri "Kəlbəcər dünyası: yüz şairin bir kitabı" adlı kitablar Kəlbəcər folklor mühiti haqqında fikir söyləməyə imkan verir. Kəlbəcər folklorunun toplanıb çap edilməsinə cəhd göstərilsə də, bu proses sistemli olaraq yerinə yetirilməmişdir. Son illər ərazinin işğalından sonra ayrı-ayrı bölgələrdə ezamiyyətdə olan folklorşünaslar həmin ərazilərdə müvəqqəti olaraq məskunlaşan Kəlbəcər sakinlərindən xeyli folklor nümunələri toplamışlar. Bu nümunələrin bir çoxu "Qarabağ: folklor da bir tarixdir" adlı kitabın VI cildinə salınmışdır. Yaxın vaxtlarda çapdan çıxan bu kitabın VIII cildi isə tamamilə Kəlbəcər sakinlərindən toplanmış nümunələrə həsr edilmişdir.

Araşdırma məsələsinə gəldikdə isə Kəlbəcər regionunun tarixi, coğrafi şəraiti, toponimləri, onomastik vahidləri və s. məsələlər ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılsa da, bölgənin folkloru indiyədək sistemli olaraq araşdırılmamışdır. Mövzu ilk dəfədir ki, sistemli araşdırmaya cəlb olunmuşdur.

**Dissertasiyanın obyekti və predmeti.** Dissertasiyanın obyektini Kəlbəcər regionunun Azərbaycanın ayrı-ayrı bölgələrində məskunlaşan sakinlərindən topladığımız folklor mətnləri və "Qarabağ: folklor da bir tarixdir" adlı kitabın VI və VIII cildindəki folklor nümunələri təşkil edir. Dissertasiyanın predmeti Kəlbəcər folklor nümunələrinin regional xüsusiyyətlərinin aydınlaşdırılmasından ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Kəlbəcər regionunun folklor mühitini, bu mühitin digər mühitlərlə qarşılıqlı əlaqələrini və regional xüsusiyyətlərini öyrənməkdir. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

– XX əsrin sonlarında regionun işğal edilməsi nəticəsində ayrı-ayrı rayonlarda məskunlaşan sakinlərdən, əsasən də, həmin ərazidə yaşamış yaşlı sakinlərdən-informatorlardan folklor mətnlərini toplayıb yazıya almaq;

– Bölgənin tarixi-coğrafi, etnoqrafik xüsusiyyətlərini üzə çıxarmaq;

– Kəlbəcər ərazisinin folklorunun regional özəlliklərini müəyyən etmək, bu əraziyə məxsus folklorun lirik və epik növlərinə aid örnəklərini respublikanın digər bölgələrinə məxsus variantlarla müqayisə etmək, oxşar və fərqli cəhətləri göstərmək;

– Regionda icra olunan mərasimlərin spesifik xüsusiyyətlərini aşkarlamaq, mərasimlərin icrası zamanı ifa olunan folklor mətnlərinin regional xüsusiyyətlərini müəyyən etmək.

**Tədqiqatın metodoloji əsasları.** Araşdırma tipoloji-müqayisəli metod əsasında aparılmışdır. Bununla yanaşı, Azərbaycan folklorunun regional xüsusiyyətlərinə dair tədqiqatlara da istinad edilmişdir. “İraq-türkman folkloru” mövzusunda monoqrafiya, “Azərbaycan folklorunun regional özünəməxsusluğu: Şirvan folklor mühiti” mövzusunda doktorluq dissertasiyası və eyni adlı monoqrafiya, “Azərbaycan folklorunun regional xüsusiyyətləri” mövzusunda monoqrafiya, “Azərbaycan folklorunun səciyyəvi xüsusiyyətləri (Gürcüstan türklərinin folklor örnəkləri əsasında)” mövzusunda doktorluq dissertasiyası, eləcə də “Gürcüstanda türk xalq ədəbiyyatı” mövzusunda monoqrafiya, “Dərələyəz folklorunun regional xüsusiyyətləri” adlı monoqrafiya, “Azərbaycan folklorunun regional xüsusiyyətləri (Şəki-Zaqatala folklor nümunələri əsasında)” mövzusunda namizədlik dissertasiyası, “Şəki folklor mühiti” mövzusunda namizədlik dissertasiyası və eyni adlı monoqrafiya belə tədqiqatlardandır.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın aşağıdakı elmi yenilikləri vardır:

– Kəlbəcər regionunun folkloru ilk dəfə bu araşdırmada geniş şəkildə öyrənilmişdir.

– Regiona məxsus folklor materiallarının özünəməxsusluğunun və tipologiyasının öyrənilməsinə ilk dəfə bu araşdırmada cəhd göstərilmişdir.

– Bölgə sakinlərindən lirik növün janrlarına aid nümunələr toplanmış, bayatıların regiona məxsus xüsusiyyətləri göstərilmiş və variantları aşkarlanmışdır.

– Bölgənin mifoloji mətn və rəvayətləri, o cümlədən bölgəyə məxsus mifoloji inamlar ilk dəfə burada təsvir və təhlil edilmişdir.

– Araşdırmada Kəlbəcər ərazisinə məxsus toponimlərlə bağlı əfsanə və rəvayətlər haqqında məlumat verilmiş, təhlil olunmuşdur.

– Regiona məxsus lətifələr və yerli lətifə qəhrəmanları, nağıllar haqqında məlumat verilmiş və onlar haqqında mətnlər təhlil olunmuşdur.

– Regionda icra olunan məişət və mövsüm mərasimləri və onlarla bağlı folklor mətnləri sistemli şəkildə təsvir və təhlil edilir.

– Kəlbəcər regionuna məxsus xalq oyunları ilə bağlı mətnlər toplanılmış və onların xüsusiyyətlərindən bəhs edilmişdir.

**Dissertasiyanın nəzəri-praktik əhəmiyyəti.** Bu tədqiqat işində əldə edilən bir çox nəticə və ümumiləşdirmələr, nəzəri fikirlər gələcəkdə Azərbaycanın digər bölgələrinin folklor mühitinin araşdırılması zamanı istifadə oluna bilər.

Bununla yanaşı, dissertasiyadan Kəlbəcər regionu haqqında informasiya əldə etmək məqsədilə istənilən folklorşünas və regionşünas faydalana bilər. Dissertasiya işindən ali məktəblərin filologiya fakültəsinin tələbələri və tədqiqatçı alimlər istifadə edə bilərlər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi AMEA Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsində işlənib hazırlanmış, mövzu ilə bağlı elmi jurnallarda məqalələr çap edilmiş, tədqiqatçı müxtəlif beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmişdir.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN MƏZMUNU

Dissertasiyanın **Girişində** mövzunun aktuallığından, obyekt və predmetindən, məqsəd və vəzifələrindən, işlənmə dərəcəsindən, tədqiqatın elmi yeniliyindən, metodoloji əsaslarından, nəzəri və praktik əhəmiyyətindən bəhs olunur, işin aprobasiyası və quruluşu barəsində məlumat verilir.

Dissertasiyanın **"Lirik növün janrları"** adlı **I fəslində** bölgədən toplanmış nümunələr əsasında lirik növə daxil olan bayatılar, laylalar tədqiq edilir. *"Bayatılar"* adlı *I yarımfəsildə* bayatıların mövzu və ideyası, regional müqayisəsi və variantları aşkarlanır. Bölgə sakinlərinin söylədiyi bayatılarda daha çox təbiət təsviri, əsasən də, dağ motivi, vətən həsrəti, zəmanədən şikayət və qaçqınlıq dərdi mövzusu üstünlük təşkil edir.

M.Təhməzovun qeyd etdiyi kimi, "Hər bir bayatının arxasında insan taleyi, mürəkkəb bir ictimai "mən" dayanır. Bu "mən"in daxili aləmi çoxcəhətli, rəngarəng və zəngindir, çünki bu "mən" tarixən formalaşan,

həmişə yetkinləşmə və yüksəlişdə olan ictimai "mən" dir"[1]. Kəlbəcərdən toplanmış bayatılarda da bu "ictimai mən"i görmək mümkündür. Sanki hər bir bayatı onu söyləyənin daxili aləmindən, təfəkküründən, düşüncəsindən və mənliyindən xəbər verir.

Bayatılar ayrı-ayrı bölgələr üzrə məhdudlaşmayıb son dərəcə üstün bir xüsusiyyətə də malikdir: formaca sadə, dilə yatımlı söz düzümündən ibarət olduğundan kütləvi xarakter daşıyır, geniş yayılır. Bunun nəticəsində bayatıların müxtəlif bölgələrdə variantları yaranır. Kəlbəcərdən topladığımız bayatılar içərisində də elə bayatılar var ki, onların variantları müxtəlif bölgələrdən toplanmış bayatılarla oxşarlıq təşkil edir. Bəzən bu oxşarlıq bütün misralarda eyni olduğu halda, yalnız sonuncu misrada onu söyləyən tərəfindən dəyişdirilir. Bunun səbəbi müxtəlif bölgələrdə yaşayan xalqın özünəməxsus yaşayış tərzi, problemləri olduğu üçün sakinlər bu dəyişikliyi öz dərd-qəminə, sevinc-kədərinə uyğun olaraq ifadə edirlər.

Bayatılarda bəzən bu variantlılıq özünü mövzu və ideyada daha qabarıq göstərir. Kəlbəcər sakinlərindən topladığımız bayatılar mövzu baxımından Şəki və Qarabağ ərazisindən toplanmış bayatılarla yaxınlıq təşkil edir. A.Cəmil Kəlbəcər mövzusuna məxsus bayatıların səciyyəvi xüsusiyyətləri haqqında yazarkən qeyd edir ki, bu bayatılar daha çox "eləmi" mətləsi ilə başlayır. Digər regionlardan fərqli olaraq "eləmi" mətləli bayatılar bu mahalın şifahi poeziyasında daha geniş yer alır[2].

*"Laylalar"* adlı *II yarımfəsildə* Kəlbəcər sakinlərindən toplanan layla nümunələrinin Azərbaycan folklor kitablarına daxil olan laylalarla müqayisədə variantlaşma xüsusiyyətinə malik olduğu göstərilir. Təbii olaraq, laylanın dörd misralı olması, nəqarəti heç bir dəyişikliyə uğramasa da, hər bir ananın övladına olan arzusu özünəməxsus səciyyə daşıyır.

Kəlbəcər sakinlərinin öz yurd-yuvalarından, el-obalarından didərgin düşməsi balalara söylənilən laylalarda da öz əksini tapmışdır və bu bölgəyə məxsus cəhətdir.

*"Aşıq yaradıcılığı və onun folklor qaynaqları"* adlı *III yarımfəsildə* isə bölgəyə məxsus aşıqların (əsasən Aşıq Şəmşirin) yaradıcılığı və onların folklorla bağlılığı göstərilmişdir. Kəlbəcər folklorunu aşıq yaradıcılığından ayrı təsəvvür etmək mümkün deyil. Bölgənin əsrarəngiz təbiəti burada yaşayan insanların qəlbinə, dilinə, sözünə də bir poetiklik gətirmişdir. Göyçə-Kəlbəcər aşıq mühiti kimi formalaşan bu mühitdə Kəlbəcər aşıqlarının xüsusi rolu olmuşdur. "Göyçə aşıq mühiti inzibati-ərazi baxımından ona yaxın bölgələri əhatə etmiş, onun təsiri ilə ətraf regionlarda

[1] Təhməzov M. Bayatı sözü haqqında // Azərbaycan jurnalı, №9, 1979, 187 s.

da saz-söz sənəti inkişaf etmiş və bunun nəticəsində qərb aşıq mühitinin ənənələri ruhunda formalaşan ustad sənətkarlar yetişmişdir. Eyni ərazini təşkil edən Göyçə-Kəlbəcərdə aşıq sənəti vahid sənət və yaradıcılıq ənənələri üzərində inkişaf etmiş və bu bölgələrin saz-söz sənəti daim əhatədə olmuşdur”[2]. Həmçinin “...Kəlbəcər-Göyçə mühitinin eyni ənənələr üzərində formalaşması, saz-söz sənətinin coğrafi hüdudsuzluğu ərazi etibarilə yaxın olan bu ellərin mənən də yaxın olmasına təbii şərait yaratmışdır”[3].

Kəlbəcər torpağının yetirdiyi aşıqlarından Ağdabanlı Qurban, Aşıq Bəsti, Aşıq Şəmşir, Bimar Əli kimi aşıqlar və el şairləri öz dövrlərinin və eləcə də Kəlbəcər aşıq mühitinin məşhur söz-saz ustadları olmuşdurlar. Hər birinin özünəməxsus dəsti-xətt ilə yaratdıqları sənət inciləri təkcə Kəlbəcərdə deyil, ətraf mahallarda da yayılmışdır. Kəlbəcər aşıqlarının yaradıcılığına bölgənin coğrafi şəraiti və folkloru da öz təsirini göstərmişdir. Bu baxımdan Ağdabanlı Qurban, Aşıq Bəsti, eləcə də Aşıq Şəmşirin yaradıcılığında folklor nümunələrindən geniş şəkildə istifadə edilməsinə rast gəlirik.

Aşıq Şəmşir Göyçə-Kəlbəcər mühitinin sənətkarıdır. Yaradıcılığının hər bir sahəsində bu mühiti əks etdirib, onun folklorunu, etnoqrafiyasını, tarixini, toponimini və s. poetik şəkildə göstərmişdir. Kəlbəcərə məxsus yerlərin xüsusiyyətlərini bədii boyalarla təsvir etmişdir. Kəlbəcərə məxsus adət-ənənələrin, coğrafi şəraitin və onların xüsusiyyətlərinin poetik şəkildə əksi Aşıq Şəmşir yaradıcılığının bölgəy ilə bağlı fərqli xüsusiyyətləri kimi özünü göstərir. Aşıq Şəmşir Kəlbəcər təbiətinə həsr etdiyi “Dağları”, “Kəpəzin”, “Murovun”, “Qoşqar”, “Buzluğun” və s. şeirlərində Şahdağ, Qoşqar, Dəlidağ, Murov, Kəpəz, Keyti dağ kimi məşhur dağların adlarını çəkmiş, eyni zamanda onların təbii gözəlliklərindən bəhs etmişdir.

Ümumiyyətlə, folklorda “dağ” motivi özünəməxsus yer tutur. İbtidai dövrdən başlayaraq insanların mifik təfəkküründə fövqəladə güclərə bağlanan, insanı heyrətləndirən nəhəng dağların yaranmasıyla bağlı maraqlı təsəvvürlər olmuşdur. Aşıq Şəmşirin yaradıcılığında dağlar əsas mövzudur. Aşıq bütün ömrüboyu öz sevincini və kədərini heç kəsə yox, məhz dağlara söyləyir. Aşıq fəxrlə deyir ki, “Şəmşirəm, hər sözüm dağa bənzəyir”[4]. Prof.

---

[2] Cəmil A. Çağdaş bayatılarımızda yurd həsrətinin poetikası (Kəlbəcərli qaçqınlardan toplanan örnəklər əsasında). Qarabağ folkloru: problemlər, perspektivlər mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s.113

[3] İsayeva S. Aşıq Şəmşirin poetikası. Bakı: Elm və təhsil, 2012, s.16

[4] Aşıq Şəmşir. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2006, s.69

K.Əliyev yazır ki, "təbiət saflıq və təmizliyin rəmzidir. Cəmiyyət daxilində insana "bəxş" edilmiş narazılıq da çox hallarda təbiətə gedişlə yüngünləşdirilir"[5]. Aşıq Şəmşir dağ, gül-çiçək, göl və digər toponimik adları da öz şeirlərinə gətirir ki, onların hər birinin tədqiqat üçün böyük əhəmiyyəti vardır. Hər bir toponimik adın altında tarix yatır. Aşığın "Ongöz bulaq", "Buzluq" və "Ana yurd" adlı qoşması tamamilə toponimlərdən ibarətdir. Burada Daşbulağın, Pilovdağın, Qanlı yurdun, Ələm ağacının, Göyçəqumun, Quzeydam və digər yerlərin adı çəkilir ki, burada hər bir toponim tarixə şahidlik edir. "Təbii ki, Şəmşir yaradıcılığının bu cəhətləri doğulub boya-başa çatdığı Kəlbəcərin əsrarəngiz gözəllikləri ilə sıx bağlıdır. Ustad sənətkar öz qoşma və gəraylılarında doğma yurdunun ulu dağlarından, güllü-çiçəkli yaylaqlarından, ceyranlı-cüyürlü çöllərindən dönə-dönə bəhs etmişdir"[6].

Onu da qeyd etmək istərdik ki, Kəlbəcərdə Aşıq Şəmşirin yaradıcılığından təsirlənən aşıq və şairlər olmuşdur. Məmməd Aslan, Bəhmən Vətənoğlu, Sücaət Əhmədov kimi tanınmış şairlərin yaradıcılığında Aşıq Şəmşirin poetik təsirini görmək mümkündür. Hətta Aşıq Şəmşirin Məmməd Aslan və Bəhmən Vətənoğlu ilə də deyişmələri məlumdur.

Aşıq Şəmşir özünəqədərki klassik aşıq poeziyasından istifadə etdiyi kimi, müasirlərinin də Aşıq Şəmşir yaradıcılığından istifadə etməsi və onun tükənməz yaradıcılıq xəzinəsindən bəhrələnməsi ədəbi varisliyin mükəmməl nümunəsidir.

Dissertasiyanın **"Epik növün janrları"** adlı **II fəslində** Kəlbəcər regionundan toplanmış epik növün janrlarına aid nümunələrdən bəhs edilir. *"Mifoloji inamlar"* adlı *I yarımfəsildə* mifoloji mətnlər və mifoloji personajlar təhlil olunur. Burada yarımbaşlıqlar şəklində qeyd edilmiş "yağışın yağması və ya kəsməsi ilə bağlı ovsunlar", "çörəklə bağlı inanclar", "ovçuluqla bağlı inanclar", "qurd ağzı bağlamaq inancı", "şər vaxtı ilə bağlı inanclar" və mifoloji qadın obrazı (Hal anası-Albastı) ayrı-ayrılıqda araşdırılır. Prof. Q.Paşayev "ilkin janr" adlandırdığı inanclarla bağlı qeyd edir: "İnsanların real həyat hadisələrinə inam və etiqadlarının bədii əksi bu janrların əsas səciyyəvi xüsusiyyətlərini təşkil edir. Bunlar müşahidə, inam nəticəsində sınaq və təcrübədən keçirilərək qətiləşmiş, xalq

[5] Əliyev K. Azərbaycan romantizminin poetikası. Bakı: Elm, 2002, s. 150
[6] Paşayev S. Aşıq Şəmşirin poetik aləminə səyahət. Bakı: Orxan, 2008, s. 54

yaradıcılığının ilkin janrlarına çevrilmişlər”[7]. Bölgədə təbiət qüvvələrinin qarşısını almaq üçün yağış yağdırmaq və yağış yağmasının qarşısını almaq inancı, “qurd ağzı bağlamaq” inancı və “şər vaxtı” ilə bağlı inanclar mövcuddur ki, bu inanclar digər bölgələrin folkloru ilə oxşarlıq təşkil edir. Bölgəyə aid “çörəklə”, “ovculuqla” bağlı inanclar isə özünəməxsus xüsusiyyətlərə malikdir. Hal/Al arvadı ilə bağlı əldə olunmuş rəvayətlərin respublikanın digər bölgələrindən, eləcə də başqa türk xalqlarından toplanılaraq nəşr edilmiş variantları müqayisəli şəkildə öyrənilir. Eyni zamanda xalq inancları və onların işlənmə səviyyəsi göstərilir.

Toponimik səciyyə daşıyan rəvayətlər və əfsanələr **III fəslin** *“Əfsanə və rəvayətlər”* adlanan *II yarımfəslində* öyrənilir. Burada Kəlbəcərə məxsus yer adları ilə bağlı rəvayət və əfsanələr təhlil edilir. Toponimik əfsanələrin çoxu müxtəlif yer, ərazi adlarına, qalalara, dağlara, bulaqlara, çaylara, göllərə və s. həsr edilmişdir. Toponimlər (yer adları) çox vaxt burada yaşamış qəbilənin, tayfanın adından, bəzən də həmin yerin relyefindən, coğrafi şəraitindən asılı olaraq yaranmışdır. Coğrafi adların bir qrupu mənsub olduğu xalqın və onun formalaşmasında iştirak etmiş ayrı-ayrı tayfa və etnik qrupların adlarından yaranıbdır. Toponimika tarixin, tarixi coğrafiyanın bir hissəsidir. Kəlbəcər sakinlərindən topladığımız “Gəlin qayası”, “Ağcaqız yaylağı”, “Keyti dağı”, “Laçın qayası”, “Əjdaha qayası”, “Qoçdaş yaylağı”, “Əli pəncəsi qayası”, “Ərizə qalası”, “Pəriçınqılı”, “Qanlı göl”, “Ala göllər” və s. kimi əfsanə və rəvayətlərdə adları çəkilən toponimlərin yaranmasının izahı verilmişdir. Bütün bu toponimləri öz coğrafi əhatəsində birləşdirən yer adlarının xalq düşüncəsində qorunan etimoloji izahı bir çox tarixi gerçəkliklərin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynaya bilər.

“Laçın qayası” əfsanəsi bitkin və bədii bir əsərdir. “Laçın adlı bir oğlan var idi. Kasıb olan bu oğlan varlı bir kişinin qızını sevirmiş. Qızın atası isə belə bir şərt qoyur ki, hansı oğlan ona bir dağ keçisi ovlayıb gətirsə, qızını ona verəcək. Dağ keçiləri hündür qayalıqlarda olarmış. Bir gün oğlan ova çıxır və dağ keçisini vurur, lakin özü sürüşərək qayanın dibinə düşür. Camaat nə qədər edirsə, onu çıxara bilmir. Məsləhət görürlər ki, oğlanın sevdiyi qızı gətirsinlər, bəlkə cürət edib oradan çıxsın. Qız qayanın başına yaxınlaşıb deyir, ay Laçın, mən gəlmişəm, gözümün yaşını tökmüşəm. Qızın səsini eşidib Laçın oradan çıxır. Və o gündən o qayanın

[7] Paşayev Q. Bitib tükənməyən incilər xəzinəsi // Ön söz. Azərbaycan folklor antologiyası, II kitab (İraq-Türkmən cildi) Bakı: Nurlan, 2009, s. 9

adı Laçın qaya olur”[8]. Əfsanədə iki gəncin sevgisi və bu sevginin gücünün böyüklüyü, eyni zamanda keçmişdə olan bir el adəti öz əksini tapmışdır. Belə bir adət vardır ki, ata qızına elçi gələn oğlanın qarşısına hansısa bir şərt qoyar və şərti yerinə yetirən oğlana da qızını verərmiş. Çətin suallar verməklə ağlını, biliyini yoxlamaq, at yarışlarında qalib gəlməklə hünərini göstərmək, qolunun gücünü bilmək üçün düyünlü ağac kötüyü yarmaq, qol güləşləri təşkil etmək və ovçuluq, nişançılıq məharətini öyrənmək və s. şərtlər qoymaqla oğlanın ağlını, gücünü yoxlayarmışlar. Bu əfsanədə də oğlan özünü təhlükəyə ataraq qızın atasının qoyduğu şərti dağ keçisini ovlamaqla yerinə yetirir.

“Maral qayası”, “Əjdaha qayası”, “Qoçdaş yaylağı” əfsanələri isə çox qədim görüşlərlə bağlıdır. “Maral qayası” ibtidai insanın inamları, totemləri ilə bağlı yaransa da, sonralar epikləşərək daha məzmunlu bir əfsanəyə, bir hekayəyə çevrilmişdir.

Kəlbəcərdəki toponimlər türk mənşəlidir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2009-cu ildə nəşr etdirdiyi statistik göstəricilərə görə[9], Kəlbəcər rayonunun əhalisinin milli tərkibi, əsasən, Azərbaycan türkləridir. Bir sıra qədim türk tayfalarının adı bu gün də bu toponimlərdə yaşayır.

Toponimik əfsanələr mövzu baxımından rəngarəng olub, eyni zamanda yurd, vətən sevgisi, qeyrət, namus kimi dəyərləri aşılamışdır. Kəlbəcər rayonunun ərazisində “Gəlin qayası” ilə bağlı əfsanələr buna nümunədir. Araşdırmalar göstərir ki, təkcə müqəddəs hesab edilən daşlar, qayalar deyil, həmçinin qızlar, gəlinlər də əfsanə və rəvayətlərdə əsas yer tutmuşlar. “Gəlin qayası”, “Qız qalası”, “Gəlin daş”, “Qız-gəlin” və s. əfsanələri bunu özündə əks etdirir.

Regiondan toplanmış əfsanələrdə “daşa dönmə” motivi vardır. Bu motiv bəzən əfsanələrdə haqsızlığa qarşı yenilməzlik, bəzən də Allaha yalvarışla zülmün və ya zalımın əlindən qurtuluş kimi funksiya daşıyır. Diqqəti çəkən tərəf isə insanların xilas olmaq üçün dağlara üz tutmasıdır. Bu da özlüyündə dağ kultunun izlərini gizlədir. “Daşa dönmə” motivi tək bir canlının deyil, eyni zamanda bir çox canlının qrup şəklində çevrilməsi

---

8 Kəlbəcər – Folklor da bir tarixdir (Kəlbəcərli sakinlərdən toplanmış nümunələr) / Toplayıb tərtib edən: Abbasova A. Bakı: AR-nın Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə çap edilmişdir. 2014, s. 61

9 Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan regionları. Bakı: 2013, s. 698

ilə də bağlı ola bilir. “Qoçdaş” yaylağı adlı əfsanəni buna nümunə göstərə bilərik.

İnsan adı ilə bağlı yaranan toponimlər haqqında da maraqlı rəvayətlər mövcuddur. Kəlbəcər rayonunun Qaracanlı kəndindən Başlıbel kəndinə gedən yolda dağ aşırımı var. Bura dağ aşırımı olmasına baxmayaraq, həm də düzəngahdır. Bu düzəngahda “Ağcaqız” yaylağı və “Ağcaqız” qəbiristanlığı mövcuddur və bununla bağlı əfsanə də vardır.

Qeyd edilən ərazidə mövcud olan əfsanə və rəvayətlər içərisində dini mövzuda olan mətnlər də çoxdur. Buna “Əli daşı” rəvayətini nümunə göstərə bilərik. Kəlbəcərdə göllə bağlı əfsanə vardır ki, bu da rayonunun Murovdağ sahəsində yerləşən “Qanlı göl” əfsanəsidir. “Qanlı göl” adlı əfsanə folklorumuzda müxtəlif variantlarda mövcuddur. Azərbaycanın Naxçıvan və Kəlbəcər bölgəsində yerləşən gölün adı ilə bağlıdır. Əfsanə ictimai məzmun daşısa da, gölün mifoloji xüsusiyyətini əks etdirir. Əsasən, gölün ölümgətirici xüsusiyyəti ifadə edilmişdir. Eyni zamanda, “Qanlı göl” adını da bu xüsusiyyətinə görə almışdır. Əfsanənin Naxçıvan variantlarında “Qanlı göl”[10] daha çox mifik obraz kimi göstərildiyi halda, Kəlbəcər variantında isə bu daha çox göl onda baş verən bədbəxt hadisələrlə bağlıdır. Buna baxmayaraq, əfsanələrin bütün variantlarında əsas obraz kimi göl ön planda olub, göl və insan münasibətini əks etdirmişdir. Göl insanları məhv edir, onları içərisində batırır. Qanlı sözü əfsanədə həm gölün insan qanına bulanmasını, həm də sevdiklərini, əzizlərini bu göldə itirmiş insanların gölə qarşı nifrətini, “qanlı olmasını” ifadə edir. Kəlbəcərdə “Ala göllər” adlı göl var ki, bu göl bir neçə xırda göldən ibarətdir. Gölün suyu ala-bəzək rəngə çaldığı üçün “Ala göl” adlanır. Göllə bağlı məzmunu olan bir əfsanə yoxdur, lakin kənd sakinlərinin dediklərinə əsasən, “bu göllərdə dəniz ayğırı (dərya atı) yaşayırmış. Əhali öz atlarını oraya gətirərmiş. Gecə və sübh tezdən həmin atları görmək olarmış. Onlar dənizdən çıxıb yenidən dənizə qayıdarmışlar”[11].

Azərbaycan folklorunda bulaq anlayışı da vardır ki, bundan xalq mərasimlərində, rituallarında geniş istifadə edilmişdir. Eyni zamanda, bulaq xalqın düşüncəsinə qız-gəlinin yığnaq yeri, nənə-babaların arzu-istəyinin, yuxusunun aydınlandığı, müqəddəs bilindiyi, cavanların eşqə düşdüyü yer

---

[10] Azərbaycan folklor antologiyası. 23 cilddə, I c. Naxçıvan folkloru / Tərtib edənlər: Fərzəliyev T., Qasımlı M. Bakı: Səda, 1994, s. 92

[11] Kəlbəcər – Folklor da bir tarixdir (Kəlbəcərli sakinlərdən toplanmış nümunələr) / Toplayıb tərtib edən: Abbasova A. Bakı: AR-nın Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə çap edilmişdir. 2014, s. 58

kimi daxil olmuşdur. Bulaqla bağlı əfsanələr də çoxdur. Bunlardan biri də Kəlbəcərdən toplanmış "Ceyran bulağı" adlı əfsanədir.

*"Lətifələr"* adlı *III yarımfəsildə* bölgədə söylənilən lətifələr və yerli lətifə qəhrəmanlarından söhbət açılır. Lətifələr ayrı-ayrı şəxslərin adı ilə bağlı olub, bölgənin özünəməxsus xüsusiyyətlərini – yaşayış tərzini, məişətini, adət-ənənəsini, düşüncəsini əks etdirir. Mirzə Rəfi, Kalvalı, Kərbəlayı Fərəc, Mirzalı və s. kimi yerli lətifə qəhrəmanları xalq düşüncəsinin sirlərini açmağa kömək edir.

Başqa xalqlarda olduğu kimi, bizdə də ümumxalq malına çevrilmiş lətifələrindən başqa, bir də ayrı-ayrı şəxslərin adı ilə bağlı lətifələr vardır.

Hər bir rayonun, hər bir kəndin özünəməxsus lətifə qəhrəmanı olur. Şəkidə Hacı dayı, Qazax-Tovuzda Ayrım Tağı, Padar, Qarabağda Abdal Qasım, Salyanda Mirzə Bağı, Gəncədə Baməzə Musa və başqaları nə qədər məşhurdurlarsa, Kəlbəcərdə də Mirzə Rəfi, Kalvalı, Kərbəlayı Fərəc, Şahlar, Alməmməd və s. adlı kənd sakinləri öz hazırcavablığı, məzəli-duzlu əhvalatları ilə məşhurlaşmışlar.

Kəlbəcər regionuna məxsus lətifə janrı mövzu baxımından rəngarəngdir. Burada ailə-məişət, siyasi, ictimai, dini və s. mövzulu lətifələr vardır. Ailə-məişət mövzusunda olan bəzəmələrdə avamlıq, sadəlövhlük, qanmazlıq, anlamazlıq kimi insan xarakterlərinə təsadüf edirik. Regionda Mirzalı adlı kişi ilə bağlı topladığımız ailə-məişət zəminində olan lətifələrdə bunu aydın şəkildə görə bilərik.

Lətifələr yalnız ictimai-siyasi, yaxud da tərbiyəvi mənaları özündə birləşdirmir. Elə lətifələrimiz də vardır ki, o lətifələr xalqın adət-ənənəsinin, yaşam tərzinin, məişətinin hər hansı elementinin göstəricisi ola bilir. "Toy cəriməsi" adlı lətifədə xalqın toy adət-ənənəsinə daxil olan "toy cəriməsi" adəti qeyd edilmişdir ki, toyda oyunla cərimələnən adam ya oynamalı, ya da ki, onun əvəzində pulla cəriməni ödəməli olurdu. Lətifə qəhrəmanının başına gələn hadisə bu cərimə məsələsinin xalq adətində necə əhəmiyyətə malik olmasının göstəricisidir. Cərimə verməkdən bezən lətifə qəhrəmanı ondan qurtulmaq yollarını axtarır. Lakin sonda gülməli, eyni zamanda bədbəxt bir hadisə ilə qarşılaşır.

Kəlbəcərə məxsus lətifələr içərisində siyasi məzmunlu lətifələr də vardır ki, burada sovet dövrünün qayda-qanunlarının ifşası özünü göstərmişdir. Rəfi kişi ilə bağlı topladığımız lətifələrdə lətifə qəhrəmanının sırf özünəməxsus xüsusiyyətləri əks etdirilmişdir. Bu lətifələr Rəfi kişinin mövcud ictimai münasibətlərə komik yanaşma tərzini və kəskin sarkazmı özündə birləşdirmişdir.

Kəlbəcər regionunda dini məzmunlu lətifələrə də rast gəlmək mümkündür. Bunlar daha çox dini mahiyyət daşısa da, bəziləri qədim inanclarla da bağlı olmuşdur. Xalq arasında geniş yayılmış bədnəzərlə bağlı inanc lətifə mövzusuna da çevrilmişdir.

Kəlbəcərdən toplanmış nümunələr içərisində lətifə qəhrəmanlarından başqa, bir də qadın qəhrəmanlar vardır. Bu obrazlar daha çox məhəlli xarakter daşısa da, onlarla bağlı lətifələr digər lətifə qəhrəmanları kimi bölgədə məşhur olan lətifələr idi. Bunlara nümunə kimi Tükəzban və Fənar nənəni göstərmək olar. Hər iki obrazla bağlı lətifələrdə onların xarakterlərini tamamilə bir-birinə zidd olduğunu görürük. Tükəzban nənə hazırcavab və söz ehtiyatı baxımından zəngin biri kimi, Fənar nənə isə cahil və avam biri kimi lətifə qəhrəmanına çevrilmişlər.

Lətifə qəhrəmanlarının ərazilər üzrə nəzərdən keçirilməsi həmin bölgələrə məxsus lətifələrin məzmun və ideyalarının təhlili zamanı daha qabarıq nəzərə çarpır. Kəlbəcərə məxsus lətifələr isə daha çox məhəlli səciyyə daşıyıb bölgədə yaşayan şəxslərin adları ilə bağlıdır. Bölgəyə məxsus ailə-məişət mövzusunda olan lətifələrdə həmin bölgənin mədəniyyəti, adət-ənənəsi, əxlaqı, etikası, psixologiyası əks etdirilmişdir. İctimai-siyasi mövzuda olan lətifələrdə isə sovet idarəçiliyi və ayrı-ayrı vətəndaşların vəzifə özbaşınalığından bəhs edilmişdir. Ailə-məişət mövzusunda olan lətifələdə də ictimai münasibətlər öz əksini tapmışdır. Çünki ailə-məişətdə baş verən məsələlər cəmiyyətdə olan ictimai münasibətlərin nəticəsi olaraq yaranır.

*"Nağıllar"* adlı *IV yarımfəsildə* isə bölgə sakinlərindən topladığımız nağıllar və onların Azərbaycan şifahi xalq ədəbiyyatında olan nağıllar sistemindəki yerindən, variantlarından bəhs edilir. "Şah Abbas və vəzir Allahverdi xan"la bağlı nağıl süjeti üstünlük təşkil edir və "Şıx Səyad" isə yeni nağıl personajı və yeni süjet xətti ilə fərqlənir.

"Qarabağ: Folklor da bir tarixdir" adlı toplunun Kəlbəcərə aid cildində bölgədən toplanmış nağıllar içərisində "Şıx Səyad" adlı yeni nağıl obrazı və yeni süjet xəttinə malik nağılla rastlaşdıq.

İ.Rüstəmzadə yazır ki, "Şıx Səyad, Şıx Sədi, Şıx Sədin kimi müxtəlif şəkillərdə işlənən bu personajla bağlı üç süjet qeydə alınmışdır. Həmin süjetlərdən biri və ən geniş yayılanı Şıx Səyadın qadınların əməlindən kitab yazmasıdır"[12]. Nağılın məzmununda Şıx Səyad qadınların əməlindən bəhs edən "qırx qəflə-qatır yükü" kitabı yazır, lakin o axırıncı getdiyi qadının

[12] Qarabağ: Folklor da bir tarixdir. VIII c. / Toplayıb tərtib edən: İ.Rüstəmzadə. Bakı: Zərdabi LTD, 2014, s. 5

oyununa tuş gəlir və kitabları orada yandırır. Şıx Səyad digər bir süjetdə isə elə bir qızla evlənmək istəyir ki, "o qız bu dünyanın işini bilməsin. Onun üçün qızı anasının bətnində behliyir". Şıx Səyad qızı bu dünyadan və dünyanın işlərindən gizli saxlamasına baxmayaraq, qız bir qarı vasitəsilə Şıx Səyada xəyanət edir. Bir sözlə, Şıx Səyad qadınların əməlindən baş aça bilmir. Nağıl personajı və nağılın süjet xətti Kəlbəcər bölgəsinə aiddir və ayrı-ayrı bölgə folklorunda mövcud olmamışdır.

Bölgəyə məxsus nağıllar içərisində "Şah Abbas və vəzir Allahverdi xan"la bağlı nağıllar isə silsilə təşkil edir. Ümumiyyətlə, nağıllarda şah, bəy, xan, hökmdar obrazlarına tez-tez rast gəlirik. Bu tip nağıllar adları çəkilən obrazların həyat və fəaliyyəti haqqında məlumat verməklə yanaşı, xalqın onlara qarşı münasibətini də əks etdirir. Şah Abbasa olan münasibət qəddarlıq, ədalətsizlik çərçivəsindən çıxaraq daha çox sadəlövhlük, tələsik qərar verməklə peşmançılıq hissi kimi göstərilmişdir. Hətta nağıl danışan söyləyicilərin bəzisi Şah Abbası Xıdır İlyasa bərabər tuturlar, "Xıdır kimi dadına çatır, Xıdır peyğəmbər kimi adam idi" ifadələrini yeri gəldikcə işlədirdi.

Mövzu baxımından nağılların hər növünə aid nümunələrə burada rast gəlmək çətin deyil, amma məişət nağılları daha çox üstünlük qazanmışdır. Regiondan toplanmış "Zərgərin nağılı", "Məhbubə xanım", "Padşah və ağıllı qızı", "Qaşıqçının nağılı", "Yeddi qardaş ilan" adlı nağıllar isə fərqli mövzulardadır. Folklor antologiyalarında "Haqq var, divan yoxdur", "Xain ata" nağıllarının da variantlarına rast gəlirik. Bu nağıllar çox az dəyişikliklərlə eyni süjet xəttinə malikdir. "Qaşıqçının nağılı" adlı nümunədə isə "qismətdən qaçmaq olmaz" (830[*])[13], motivi aparıcıdır ki, burada varlı bir kişi özünə qismət olmayacaq qızılı qaşıqçıya qismət etməmək üçün əlindən gələni edir. Buna baxmayaraq, qızıl dönüb-dolaşıb yenə də qaşıqçıya qismət olur.

Kəlbəcər sakinlərindən toplanmış digər bir nağıl isə "Zərgərin nağılı"dır. Nağıl iki variantda (söyləyici və söyləyicinin qızından) toplanmışdır. Eyni məzmun və süjet xəttinə malik olmasına baxmayaraq, birinci mətni orijinal hesab etmək olar. İkinci mətn isə ixtisarlar və hadisələrin yerinin dəyişilməsi ilə bir az təhrif olunmuşdur. Kəlbəcərdən toplanmış nağılların süjet göstəricilərinə gəldikdə isə bir neçə nağılı çıxmaq şərti ilə digər nağıllar süjet kataloqunda yer almışdır.

---

[13] Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi. Bakı, Elm və təhsil, 2013, s. 209

Azərbaycan nağıllarının əsasını təşkil edən süjetlər, nağıl üçün işlədilən ənənəvi obrazlar sisteminə Kəlbəcər regionuna məxsus folklor nümunələrində də rast gəlmək mümkündür. Xalq yaradıcılığı məhsulu olan nağılların dili ümumxalq dili olub, xəlqiliyi ilə seçilir. "Müasir insanın nağıla inanıb-inanmaması heç də janrın poetikasına əsaslı təsir göstərə, məsələnin əsl mahiyyətini dəyişə bilməyib. Məsələnin mahiyyəti ondan ibarətdir ki, nağıllarda uydurma və həqiqəti nağıl yaradıcısı (xalq) özü müəyyənləşdirir"[14]. Bu xüsusiyyət Kəlbəcər folklorunun digər epik janrlarının, xüsusilə nağılların da əsasını təşkil edir. Nağıllarda həddən artıq uzunçuluq, sözçülük, artıq ifadələr və sözlər yoxdur. Poetiklik, bədiilik, canlılıq, səlistlik, aydınlıq və şuxluq nağılların dilinin əsas xüsusiyyətlərindəndir. Xalq dilinin bütün incəlikləri və gözəllikləri nağıllarda öz əksini tapmışdır.

Dissertasiyanın **"Mərasim folkloru"** adlı **III fəslində** bölgənin mərasim folkloruna aid nümunələr araşdırılır. Doğum mərasimi, toy və yas mərasimi haqqında məlumat verilir, həmin mərasimlərdəki bəzi adətlər təhlil olunur. **III fəslin** *"Məişət mərasimi"* adlanan *I yarımfəslində doğum mərasimi* ilə bağlı nümunələr Azərbaycanın regional folkloru, eyni zamanda dünya folkloru ilə qarşılıqlı şəkildə müqayisə edilir, oxşar cəhətləri müəyyənləşdirilir. Doğum mərasiminin regionlar üzrə ümumi cəhəti mərasimdə icra edilən bütün ritualların hamısının müxtəlif formada digər bölgələrin folklorunda da mövcud olmasıdır. Bölgəyə məxsus fərqli cəhət isə mifoloji qadın obrazı-"Hal anası" ilə bağlı inancların üstünlük təşkil etməsidir. Doğum mərasiminin dünya folkloru ilə oxşar cəhətini mərasimdə icra edilən adətlər-hamilə qadının qorunması tədbirləri, uşağın cinsiyyətinin öyrənilməsi, uşaq sonu (cift)- plasenta ilə bağlı inanclar təşkil edir. Fərqli cəhətini isə mərasimdə keçirilən ritualların daha çox təbiət ünsürləri-od, su, daş, bitkilərlə bağlı olması təşkil edir.

*I yarımfəslin toy mərasimi* ilə bağlı bölümündə isə Kəlbəcərə məxsus toy adətlərinin digər regionların folkloru ilə oxşar cəhətləri-toyun üç mərhələdən ibarət olması, burada keçirilən adətlərin və icra edilən ayinlərin eyniyyət təşkil etməsi göstərilmişdir. Bölgənin özünəməxsus xüsusiyyəti isə gələcək gəlinin uğurlu olub-olmaması ilə bağlı icra edilən ayin, "toy qardaşlığı" adəti, toyda xüsusi oynanılan "Maral oyunu" və "Kilimarası" oyunudur.

---

[14] Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, s. 135

*Yas mərasimləri* ilə bağlı folklor nümunələrinin təhlili göstərir ki, bölgədə ölünün islam dininə uyğun adətlə dəfn edilməsi və mərasimdə icra edilən ayinlər  digər bölgələrin eyni tipli nümunələri ilə ortaqlıq təşkil edir. Bölgə ilə bağlı xüsusi cəhət isə mərasimdə danışılan rəvayətlərin daha çox İmam Əli ilə bağlı olması və "pay qoyma" adətinin mövcudluğudur.

**III fəslin** *II yarımfəsli "Novruz adət-ənənələri mövsüm mərasimi kimi"* adlanır. Burada bayramın mənşəyi ilə bağlı bölgə sakinlərindən toplanmış dini rəvayətlər təhlil edilir. Novruz bayramında icra edilən adətlər-bayram hazırlığı, dörd çərşənbənin qeyd edilməsi, axır çərşənbə ritualları bölgəni digər regionların folkloru ilə yaxınlaşdırır. Bölgədə keçirilən Novruz bayramının özünəməxsus cəhətləri isə icra edilən ayində "axar su"yla bağlı inancların üstünlük təşkil etməsi, bayrama məxsus "aralıq kömbəsi", "əriştəli aş" xörəklərinin bişirilməsi və bayramın yaranması tarixini İmam Əli ilə bağlı dini rəvayətlərlə əlaqələndirilməsi təşkil edir.

*"Xalq oyunları"* adlı *III yarımfəsildə* Kəlbəcərə məxsus xalq oyunları nəzərdən keçirilir və onların özünəməxsus xüsusiyyətləri təhlil edilir. "Kilimarası" və "Maral oyunu" adlı xalq oyunlarının spesifik xüsusiyyətləri göstərilir. Xalq oyunlarından "Çövkən", "Dirədöymə", "Çilikağac", "Aşıq-aşıq", "Yumurta döyüşmə" və s. Oyunlar isə digər bölgələrin folklor nümunələri ilə variant təşkil edir. "Kilimarası", "Maral oyunu", "Həccə getmə", "Ev köçürmə" və s. oyunların isə bölgəyə məxsus oyunlar olduğu göstərilir.

Müxtəlif türk xalqlarında olduğu kimi, Azərbaycan xalqına da məxsus olan oyun və tamaşalar dramatik növdə çoxluq təşkil edir. Eyni zamanda, bu xalq oyunları regional xüsusiyyətə malik olub eyni, yaxud ayrı-ayrı bölgələrə məxsus oyun və tamaşalara ayrılır. Kəlbəcər regionuna aid topladığımız nümunələr içərisində xalq oyunları da özünəməxsusluğu ilə seçilir. Bu oyunlardan "Çövkən", "Dirədöymə", "Maral oyunu", "Kilimarası oyunu" və s. kimi oyunlar vardır ki, bu oyunlar müəyyən dövrə qədər xalq arasında sevilə-sevilə oynanılmış, eyni zamanda qədim bir tarixə malik olmuşdur. Ayrı-ayrı bölgələrə aid xalq oyunlarının əksəriyyəti regional variantlaşma səviyyəsi daşıyan nümunələrdən ibarətdir. Bu daha çox coğrafi amilə bağlıdır.

Doğrudur, oyunlar haqqında, əsasən, Kəlbəcərin yaşlı sakinlərindən soruşduqda, bu oyunları öz uşaqlıq dövrlərində oynadıqlarını, nəslin davamçılarının isə, təəssüf ki, bu oyunları oynamadığını qeyd etdilər. Çünki öz el-obasından didərgin düşüb müxtəlif bölgələrdə, müxtəlif

şəraitdə yaşayan sakinlər hətta adət-ənənələrinin belə “didərgin” olduğunu ürək yanğısı ilə qeyd edirdilər.

“Maral oyunu” və “Kilimarası oyunu” isə oyundan çox xalq tamaşalarına daha yaxındı. Akademik M.Arif göstərir ki, Kəlbəcərin Ağcakənd kəndində kilimlərin arasına bükülmüş kuklalarla oynanılan “Kilimarası oyunu” Azərbaycan kukla teatrının bəsit forması ola bilər. “Onlar səssizdir, barmaq, diz və ayaqla hərəkət etdirilir. Kuklalar kilim arasında göstərilir. “Kilimarası oyunu güldürmək, əyləndirmək məqsədi daşıyır. Onlara nümunə olaraq, “Tapdıq çoban”, “Maral oyunu”, “Kaftar-küs” və s. göstərmək olar”[15].

Azərbaycan kukla teatrı tamaşalarının ilk nümunələri sayıla bilən oyunlardan biri kimi “Kilimarası” oyunu tamaşa şəklində qurulan bir oyun idi. “Oyunun iştirakçısı bir nəfər olurdu. Onun sağ əlinin üç barmağına çubuq bağlayırdılar. Bu çubuqları qız və iki oğlan formasında bəzədirdilər. İfaçını isə kilimə bükürdülər. Oyun sabit süjet xəttinə malik idi. İlk səhnədə Ceyran adlı gənc qadın və onun əri birlikdə rəqs edirlər. Aralarındakı sevgini, məhəbbəti göstərir və buna uyğun hərəkətlər edirdilər. Sonra gəlinin əri yatır. Gəlin onun yatıb-yatmadığını yoxlayır və o tərəf-bu tərəfə baxıb başqa bir oğlanı-aşiqini qaldırıb oynadır. İkisi də səmimi formada oynayırlar. Yəni qadın ərinə xəyanət edir. Bu vaxt gəlinin əri yuxudan oyanıb oğlanı əlindəki xəncərlə, yaxud da bıçaqla qətlə yetirir. Bununla da oyun bitirdi. Hər kəs alqışlayırdı. Oyunda musiqiçilər də olurdu. Onlar əsasən qara zurna və dəfdə ifa edirdilər”[16].

Oyun ailə-məişət mövzusunda olub əxlaqi-tərbiyəvi xüsusiyyətə malikdir. Yüksək humanist duyğular, şərin cəzalandırılması, günahsız insanların qələbəsi və s. bu kimi müsbət keyfiyyətlərin aşılandığı bu tamaşalar insanlarda həmişə böyük marağa səbəb olmuşdur. Kəlbəcərdə bu oyun daha çox toy mərasimlərində oynanılmışdır. Təzə bəy və gəlinin qarşısında oynanılan bu oyun insanların bir-birinə sədaqətli, vəfalı olmasını aşılayırdı. Doğrudur, oyun kütlənin bütün yaş qrupuna aid olan bir oyun deyildir. Az yaşlı uşaqların bu tamaşaya baxması yalnız görünüş baxımından əyləncəli sayıla bilərdisə də, mövzu baxımından isə onların yaş səviyyəsinə uyğun sayılmazdı. Sonralardan bu oyunun sonluğu dəyişdirilmiş, başqa məzmun almışdır.

---

[15] Arif M. Azərbaycan xalq teatrı. Ədəbiyyat məcmuəsi, Bakı: 1946, s. 8

[16] Kəlbəcər – Folklor da bir tarixdir (Kəlbəcərli sakinlərdən toplanmış nümunələr) / Toplayıb tərtib edən: Abbasova A. Bakı: AR-nın Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə çap edilmişdir. 2014, s. 85

Yuxarıda qeyd etdiyimiz nümunələrə baxmayaraq, Azərbaycanda kukla teatrı geniş inkişaf etməmişdir. Professor Əli Sultanlı qeyd edir ki, "... Azərbaycan xalqı bu əyləncə vasitəsinə maraq göstərməmişdir. Bu mülahizə Azərbaycanda kukla teatrının ola bilməsi fərziyyəsini qəti sürətdə inkar etmir. Ancaq onun Azərbaycanda inkişaf edə bilməməsi də tarixi bir həqiqətdir"[17].

"Maral oyunu" toy və şənliklərdə, daha çox yaz aylarında çəmənlikdə, açıq havada maral formasında paltar geyinmiş bir nəfər tərəfindən oynanılan məşhur oyundur. Oyunda iştirakçı bir nəfər olur. O, maral formasını geyinib musiqiçinin qara zurnada çaldığı ritmik mahnıya uyğun şəkildə oynamağa-hərəkət etməyə başlayır. Maral başını yerə qoyanda ətrafdakı insanlardan nəmər istədiyini işarə edir. Ona nəmər verən kimi yenə də oyununu davam etdirir. Oyunda çalınan hava "sazağı havası" idi. Guya bu maralı Sazağı, yaxud da Sızağı adlı bir çoban yarına hədiyyə vermişdir[18]. Oyunla bağlı Kəlbəcərin Ağcakənd kəndinin sakini Məmmədov Yedyar Allahverdi oğlu belə bir rəvayət də danışır: "Bu maral nakam məhəbbətin simvoludur. İki sevgili olur. Oğlan çoban olur. Bir dəfə bir maral balası tapır və onu sevdiyi qıza hədiyyə verir. Qız maralı böyüdür və ona boş vaxtlarında oynamaq öyrədir. Toylara gedəndə maralı da özü ilə aparıb oynadarmış. Bir gün qızın atası qızı başqa bir oğlana verir. Toy günü qız qırmızı toy paltarında özünü öldürür. Oğlan da bunu eşidib özünü öldürür. Aradan bir müddət keçəndən sonra qızın saxladığı maral da ölür. İnsanlar da bu sevgililərin nakam sevgisini yaşatmaq üçün maralın toyda oynadığı formada "Maral oyunu"nu yaratmışlar"[19].

"Maral oyunu" həmçinin Göyçə, Dərələyəz və Kəlbəcərə yaxın olan digər rayonlarda da oynanılırdı. "Maral oyunu"nda maralın başındakı örpək sonralar gəlinlərin gərdəyi olubdur. Ölən gəlinin gərdəyini maral fiqurunun başına atıb toylarda oynadırmışlar. Maral fiqurunun qırmızı rəngdə parçaya bürünməsi gəlinin toy günü başına saldığı qırmızı örpəklə bağlıdır. Çünki maral əslində boz rəngdə olur.

Oyunun yayılma arealına gəldikdə isə "Qarabağ: Folklor da bir tarixdir" adlı toplunun V cildində Bərdə sakinindən toplanmış "Novruz

---

[17] Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı: Azərnəşr, 1964, s. 51

[18] Kəlbəcər – Folklor da bir tarixdir (Kəlbəcərli sakinlərdən toplanmış nümunələr) / Toplayıb tərtib edən: Abbasova A. Bakı: AR-nın Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə çap edilmişdir. 2014, s. 84

[19] Qarabağ: Folklor da bir tarixdir. VIII c. / Toplayıb tərtib edən: İ.Rüstəmzadə. Bakı: Zərdabi LTD, 2014, s. 391

adətləri” adlı mətndə maraqlı bir faktla qarşılaşdıq. Söyləyici deyir ki, “Novruz bayramında qapı-qapı gəzib pay toplayan cavanlar maral paltarı geyinmiş bir nəfəri də özləri ilə aparırmışlar və qapını döyüb pay istəyirmişlər. Maral hansı evə girsə, dimdiyini döyürdü yerə. Üzü bağlı olurdu, heç kim onu tanımırdı. Camaat təklif edirdi ki, maral nə yeyirsən? Bir qab da qoyurdular qabağına. Yediyini yeyirdi, yemədiyini torbalarına töküb gedirdilər. Gejə yarısına qədər heylə qapıları gəzirdilər... Maral qadın donu geyinirdi. Başına sorux salırdı, maral kimi hərəkət eliyirdi”[20]. Lənbəran ərazisində aparılmış toplama işində qeyd edilən bu mətndə Kəlbəcər folklorunun təsirini birmənalı şəkildə göstərə bilərik. Belə ki, sovet hakimiyyəti dövründə dağ rayonlarının aran ərazilərdə yaylaq yerləri var idi. 80-ci illərə qədər Kəlbəcər rayonunun da Bərdənin Lənbəran adlı ərazisində qışlaq yeri olmuşdur. Qışlağa köçüb gələn kəlbəcərlilər bu mərasimi həmin ərazidə keçirmişlər. Beləliklə də, “Maral oyunu” yerli sakinlərinin yaddaşında qalmışdır.

Maral bütün türklərdə rəmzi mənası eyni olan ümumi totemdir. Azərbaycan folklorunda da maralla bağlı kifayət qədər maraqlı əfsanə və rəvayətlər olmuşdur.

Yuxarıda qeyd etdiyimiz hər iki oyun regiona məxsus xüsusiyyətləri özündə cəmləşdirmişdir. Burada xalqın tarixi, etnoqrafiyası, adət-ənənəsi, yaradıcılıq qabiliyyəti əks etdirilmişdir. Hər iki oyun musiqi müşayiəti ilə ifa edilirdi. Burada “qara zurna” və “dəf” qədim tarixə malik olan musiqi alətləri olub oyunun mahiyyətini daha da zənginləşdirir. Tarix boyu xalqımız zurnanın, əsasən də “qara zurna”nın sədaları altında igid oğullarını döyüşə göndərmiş, toylarda, bayramlarda şənlənmişdirlər. Xalq çalğı aləti olan zurnanın tarixi çox qədimdir. “Kitabi-Dədə Qorqud” dastanında adı çəkilən musiqi alətlərindən biri də zurna idi. Zurna qədər dəf də qədim tarixə malik bir zərb aləti olmuşdu. Bu baxımdan “Maral oyunu” və “Kilimarası” oyununun zurna və dəflə müşayiət edilməsi oyunun qədimliyindən xəbər verən bir kombinasiya idi. Eyni zamanda, “Kilimarası” oyununda xalqımıza məxsus milli geyim mədəniyyəti də öz əksini tapmışdır. Kilimin arasında oynadılan kuklaların paltarı milli geyimdə olub bölgənin milli mentalitetinin göstəricisidir. Milli geyim xalqın maddi-mənəvi mədəniyyətini, ona xas olan xüsusiyyətləri əks etdirir və xalqın sarsılmaz etnik nişanələrini göstərir. Xalq yaradıcılığının bədii

---

[20] Qarabağ: Folklor da bir tarixdir. V c. / Toplayıb tərtib edənlər: İ.Rüstəmzadə, Z.Fərhadov. Bakı: Zərdabi LTD, 2013, s. 133

xüsusiyyətləri, onların müxtəlif halda formalaşmaları, bədii bəzək naxışları, toxuculuq qabiliyyəti xalq geyimində öz əksini tapır. Milli geyimlə yanaşı, oyunda istifadə edilən kilimin özü də kəlbəcərli qadınların, anaların yaradıcılıq qabiliyyətini əks etdirir.

Kəlbəcərdə bayramqabağı oynanılan oyunlardan biri də "Həccə getmə" oyunu idi. Oyun həm fiziki, həm də zehni güc tələb edirdi. Bu oyun zamanı iki ağac arasına qalın bir ip bağlayardılar. İpin üstünə bir nəfər çıxardı. Əlində də çubuq olardı. Ətrafına toplaşan cavanlar ona suallar verərdilər. Suallar elə seçilməli idi ki, ipin üstündə duran adam hər hansı bir hərəkət etsin və yıxılsın. İpin üstündə duran isə bütün sualları cavablandırmalı idi.

Suallar, əsasən, bu cür başlayardı: "Hara gedirsən? –Həccə. Nə ilə gedirsən? - Dəvə ilə? Dəvənin ayaqlarını göstərə bilərsən? – Oyunçu əyilib göstərəndə yıxılır. Beləliklə də, oyundan çıxır"[21].

Göründüyü kimi, oyunda əsas xətt iştirakçıya verilən suallarla bağlı idi ki, bu suallar hər hansı bir hərəkətlə bağlı olmalı idi. Eyni zamanda, iştirakçı suallara cavab olaraq elə ehtiyatlı hərəkəti etməli idi ki, oyunda qalib olsun.

Zehni və fiziki qüvvə tələb edən oyunlardan biri "Ev köçürmə" oyunu olmuşdur. "Oyunu xam torpağın üstündə oynayırdılar. Dördbucaqlı çəkilirdi və ortadan iki yerə bölünürdü. Ətrafına da xırda daşlar yığılırdı. Hər xana bir oyunçuya aid idi. Oyunçular daşları bir xanadan digər xanaya keçirib, öz xanalarında üst-üstə yığıb qurtarmalı idi. Ən tez yığıb qurtaran qalib sayılırdı. Oyun bir növ nərdtaxta oyununa bənzəyirdi"[22].

Kəlbəcərdə qış axşamları evdə ocaq qırağında oynanılan "Corabaltı oyunu" da maraqlı oyunlardan biri idi. İlk görünüşdə bəsit sayılan oyunda, əslində güclü yaddaşı olan iştirakçı qalib sayılırdı.

"Bu oyunda uşaqlar corablarının altında kiçik bir daş gizlədirdilər. Sonra bir nəfər corabları cəld şəkildə yerdəyişmə edərdi. Daşı doğru tapan qalib olardı. Oyunda zehni iti olan uşaq qalib gələrdi. Bu oyun uşaqların yaddaşını gücləndirərdi"[23].

---

[21] Kəlbəcər – Folklor da bir tarixdir (Kəlbəcərli sakinlərdən toplanmış nümunələr) / Toplayıb tərtib edən: Abbasova A. Bakı: AR-nın Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə çap edilmişdir. 2014, s. 90

[22] Həmin mənbə, s. 90

[23] Həmin mənbə, s. 90

Bu oyun Şəki-Zaqatala regionuna aid antologiyada eyni adda verilmişdir. Oyunun oynanılma qaydası da eynidir, lakin burada daş əvəzinə üzük qoyulur[24].

Qarabağa məxsus toplunun Kəlbəcərə aid cildində "Kaftar oyunu" adlı bir oyun da qeyd edilir. "Oyun kaftar adlı bir vəhşi heyvanın insanla vuruşmasını əks etdirir. Burada kaftara qalib gələn insanın qalibiyyəti əks etdirilir. O, hiylə ilə qalib gəlir. İnsanları kaftarın əlindən xilas edir"[25]. Oyun ibtidai insanın dünyagörüşü ilə bağlı olub, şərin üzərində xeyirin qələbəsi kimi öz əksini tapmışdır. T.Orucov haqlı olaraq qeyd edir ki, "Xalq oyunları ibtidai insanların formalaşmasında əvəzedilməz əməllərdən biri kimi qiymətləndirilir. İbtidai insanlar formalaşdıqca onların oyunları da sadə formadan mürəkkəb formaya düşmüşdür. Azərbaycan oyunları yarandığı dövrdən xalqın adət-ənənələrini özündə əks etdirmişdir"[26].

Yuxarıda qeyd etdiyimiz oyunların bir qismi illərdir düşmən işğalı altında qalmış Kəlbəcər regionunun Azərbaycanın müxtəlif regionlarında məskunlaşmış sakinlərinin yaddaşlarından toplanmış nümunələr əsasında yazılmışdır. Topladığımız nümunələr Kəlbəcər regionuna məxsus xalq oyun və tamaşaları haqqında müəyyən fikirlər söyləməyə imkan verir.

Dissertasiyanın **"Nəticə"** hissəsində yekun olaraq əldə edilən elmi nəticələr ümumiləşdirilir.

## Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə əksini tapmışdır:

1. Kəlbəcər bayatılarının səciyyəvi xüsusiyyətləri (Yeni toplanmış nümunələr əsasında) Dədə Qorqud. Elmi-ədəbi toplu, IV (45). Bakı, 2012, s. 58-68
2. Kəbəcər bayatılarında vətən həsrəti (Yeni toplanmış nümunələr əsasında). Azərbaycanşünaslığın aktual problemləri / Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq Elmi Konfrans. Bakı: Mütərcim, 2013, s. 21-23

---

[24] Azərbaycan folklor antologiyası. 23 cilddə, XIII c. Şəki-Zaqatala folkloru / Tərtib edənlər: İ.Abbaslı, O.Əliyev, M.Abdullayev, Bakı: Səda, 2005, s. 150

[25] Qarabağ: Folklor da bir tarixdir. VIII c. / Toplayıb tərtib edən: İ.Rüstəmzadə. Bakı: Zərdabi LTD, 2014, s. 392

[26] Orucov T. Qarabağda xalq oyunları. Qarabağ folkloru: problemlər, perspektivlər mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2012, s. 49

3. Aşıq Şəmşir və Kəlbəcər mühiti. Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş “Aşıq Sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi” mövzusunda Beynəlxalq Elmi Konfrans. Bakı: Nurlan, 2013, s.133-147
4. Toplama materiallarının regional xüsusiyyətləri (Kəlbəcər nümunələri əsasında). Folklorun toplanması və sistemləşdirilməsi problemləri mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: Elm və təhsil, 2013, s. 60-67
5. Kəlbəcər toponimləri ilə bağlı əfsanə və rəvayətlərinin özüəməxsusluğu. İpək yolu jurnalı №3, 2013, s. 82-90
6. Azərbaycan xalq oyun və tamaşalarının regional xüsusiyyətləri (Kəlbəcər nümunələri əsasında). Azərbaycanşünaslığın aktual problemləri / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq Elmi Konfrans. Bakı: Mütərcim, 2014, s. 6-9
7. Kəlbəcərdə xalq oyun və tamaşaları (“Maral oyunu” və “Kilimarası”). Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı: Zərdabi LTD, 2014, s. 92-101
8. Ümumtürk folklorunda mitolojik kadın varlığı (Hal annesi-Albastı). XXVI Uluslararası KIBATEK Edebiyat Sempozyumu. Belkıs Halim Vassaf Anısına Edebiyatta Kadın. İstanbul, 2014, s. 127-133
9. Азербайджанский обрядовый фольклор: Свадебные обычаи и традиции (На основе Кельбаджарских образцов). Ученые записки Таврического национального университета имени В.И.Вернадского Серия «Филология. Социальные коммуникации». Том 27(66). №3. 2014 г. С. 397-403
10. Kəlbəcər regionuna məxsus mifoloji inamlar. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı, 2014 / 4 (47), s. 77-87
11. Azərbaycan mərasim folklorunun regional xüsusiyyəti (Doğum mərasimi ilə bağlı Kəlbəcər nümunələri əsasında) Dədə Qorqud. Elmi-ədəbi toplu, II (51). Bakı, 2014, s. 64-73
12. Karabağ çocuk oyunlarının özellikleri. I Uluslararası türk dünyası çocuk oyun və oyuncakları kurultayı. Eskişehir, 2015, s. 116-120
13. Naxçıvan və Kəlbəcər regionuna məxsus müqəddəs yerlər. Tarixi İpək yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri Beynəlxalq İpək yolu konfransı. Naxçıvan, 2015, s. 159-160
14. Kəlbəcər regionuna məxsus lətifələr və lətifə qəhrəmanları. Azərbaycanşünaslığın aktual problemləri / Ümummilli Lider Heydər

Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq Elmi Konfransın materialları. 2 hissədə, I hissə. Bakı: Mütərcim, 2015, s. 5-7
15. Mövsüm mərasimi: Novruz adət-ənənələri. Sivilizasiya jurnalı №1, 2016, s. 82-87
16. Kəlbəcər regionuna məxsus nağılların variantları. Filologiya məsələləri jurnalı, №1, 2016, s. 64-73
17. Kəlbəcər – Folklor da bir tarixdir (Kəlbəcərli sakinlərdən toplanmış nümunələr) / Toplayıb tərtib edən: Abbasova A. Bakı: AR-nın Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə çap edilmişdir. 2014, 187 s.

**AYTAJ HIJRAN gızı ABBASOVA**

# THE REGIONAL CHARACTERISTICS OF AZERBAIJAN FOLKLORE (BASED ON KALBAJAR EXAMPLES)

## SUMMARY

The thesis consists of introduction, three chapters, conclusion and the list of used literatures. The thesis explores folklore settings of Kalbajar, interrelation of these settings of folklore with other folklore settings and regional characteristics by the typological-comparative method. The regional characteristics and their versions are analyzed in the folklore text samples gathered from the aged people settled in different areas as a result of the invasion of the region at the end of the 20th century.

In the first part of the thesis bayati and layla (quatrains) are analyzed based on the samples gathered from the aged people of the region. The subject and the idea of bayati, their regional comparison and versions are found. Ashug culture of Kalbajar is analyzed based on Ashug Shamshir art activity.

The second part of the thesis is dealt with the epics of the folklore samples. Mythological texts and personages which have been collected from the people of this region are analyzed here. At the same time the ancient beliefs of people and their usage levels are depicted. Myths and legends having the toponymic character are also described in this part. Legends and myths which are about toponyms of Kalbajar are also analyzed here. In the narrative stories section we talk about the stories collected from the people of the region and the places they hold in Azerbaijan oral literature system and their versions.

Ceremony folklore of the region is described in the third part of the thesis. Birth, wedding and funeral ceremonies are described, some traditions of those ceremonies are analyzed. In this part folklore plays of Kalbajar and their characteristic features are analyzed. Specific features of the “Kilimarası” and “Maral oyunu” folklore plays are brought forward.

In the conclusion the newness and the scientific results are generalized. The characteristic features of Kalbajar region are described in this part.

**АЙТАДЖ ХИДЖРАН кызы АББАСОВА**

# РЕГИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКОГО ФОЛЬКЛОРА (НА МАТЕРИАЛЕ ОБРАЗЦОВ КЕЛЬБАДЖАРСКОГО РЕГИОНА)

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В диссертации посредством типологически-сравнительного метода рассматривается фольклорная среда Кельбаджарского региона, а также региональные особенности и взаимосвязи данной среды с другими. В первой главе диссертации рассматриваются относящиеся к лирическому жанру колыбельные, баяты на материале собранных образцов от пожилых жителей данного региона. Выявляется тема и идея, региональное сравнение и варианты баяты. На материале творчества ашуга Шамшира исследуется искусство ашугов свойственное Кельбаджарскому региону.

Вторая глава диссертации посвящена эпическому жанру фольклорных образцов. Рассматриваются собранные в регионе мифологические тексты и персонажи. В то же время указываются народные верования и уровень их использования. В этой главе также анализируются предания и легенды топонимического характера, а также предания и легенды, связанные с названиями мест Кельбаджарского региона. В третьей главе работы описывается обрядовый фольклор этого региона. Даются сведения о обрядах рождения, свадеб и похорон, а также описываются и анализируются некоторые традиции данных обрядов. В этой главе исследуются народные игры Кельбаджарского региона, а также их своеобразные особенности. Выявляются специфические особенности народных игр «Килимарасы» и «Игра оленей».

В «Заключении» обобщается научная новизна и выводы, полученные во время проведенных исследовательских работ. В этом разделе указываются своеобразные особенности фольклора Кельбаджарского региона.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

***На правах рукописи***

**АЙТАДЖ ХИДЖРАН кызы АББАСОВА**

# РЕГИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКОГО ФОЛЬКЛОРА (НА МАТЕРИАЛЕ ОБРАЗЦОВ КЕЛЬБАДЖАРСКОГО РЕГИОНА)

**5719.01- Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ – 2016**